

**Nazim Hüseynli**

## Şəhriyarın həsrət şeiri Bakıda

Qucaqlaşmaq istəyirdi Şəhriyarla,
Bakı onu gözləyirdi intizarla...
Qara-qara yellər əsdi gələmmədi,
Xain kəslər yolu kəsdi gələmmədi.
...Neçə-neçə illər ötdü, döndü dövran,
Bu gün İran prezidenti Pezeşkian-
Türk oğlu türk Bakıdadır, gəlib o an,
Şeir deyir şirin dillə Şəhriyardan:
"...Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdən kim qırıldı, kim qaldı?..."
Duyğulanır Vətənsevər hər bir insan:
Sevinclərə bürünübdü, baxın, hər yan,
İkisi də Azərbaycan soylu rəhbər,
Seçilmişlər-bəyənilmiş, oylu rəhbər.
Vətən ilə bir döyünür ürəkləri,
Çin olacaq arzuları, diləkləri.
Gələcəkdə məmləkətim hür görünür,
Azərbaycan-o tay, bu tay bir görünür!

**28 aprel 2025**

## Azərbaycan bayrağı

Keçmişlərdən dikəlir,
Min illərdi yol gəlir,
Arxasınca el gəlir,
Azərbaycan bayrağı!

Zirvələrə dikiləndi,
Önündə diz çöküləndi,
Tabutlara büküləndi,
Azərbaycan bayrağı!

Bir məşəldi-gur, sönməz,
Yüksəlibdi, heç enməz,
Qələbəsiz geri dönməz
Azərbaycan bayrağı!

Qarabağa el-el dönür,
Səcdəsinə dağlar enir,
Xankəndidə dalğalanır
Azərbaycan bayrağı!

Ana Təbriz yolun gözlər,
Göyçə sənə baxıb sızlar,
Dərbənd həsrət, zaman izlər,
Azərbaycan bayrağı!

Hifz eyləsin daim xuda,
Əydirmərik heç vaxt yada,
Uğrunda can olsun fəda,
Azərbaycan bayrağı!

## Yüz il deyil, min il keçə...

*Bəxtiyar Vahabzadənin 100 illiyinə*

İmperiya üzərinə qılınc çəkdin,
Azadlığın məşəlçisi mücahidsən,
Əldə qələm ömrün boyu səngərdəydin,
Hürriyyətin qəhrəmanı, bir şəhidsən.
Səndən, sənin neçə-neçə əsərindən
Güc aldıq biz-tarix, millət, sən şahidsən!

Bəxtiyarla, Xəlil Rza, Məmməd Araz,
Şəhriyarla nəfəs aldı, yetişdi xalq,
Şeirlərin oxuyaraq, dinləyərək
Mətinləşdi, poladlaşdı, bitişdi xalq,
Azadlığı haylayanda Ana Vətən,
Göz qırpmadan bu haraya yetişdi xalq!

Bilə-bilə cəzasıdır ölüm, qanlı
Kəfən geyib "Gülüstanı" yazan şair,
Şeirləri azadlığın himni olan,
Təzyiqlərə, zülümlərə dözən şair,
20 Yanvar şəhidini "Şəhidlər"də
Qanı ilə vəsf eyləyən ozan, şair!

Özgə dili üstün tutan manqurtların
Öz xalqına bir faydası, sözü də yox,
Biganəlik şaxtasından dona bilən
Öz dilini isitməyə közü də yox,
Ana dili silinənin, yox olanın
Dövləti də, milləti də, özü də yox!

Sən azadlıq eşqin ilə millətimin
Fikrindəsən, ruhundasan, qanındasan,
Əldə silah düşmən qovan əsgərimin
Ürəyində, nəfəsində, canındasan,
Yüz il deyil, min il keçə dövlətimin,
Bayrağımın keşiyində, yanındasan.

## Turan deyib ular bozqurdum

Türk torpağı bölüm-bölüm bölündü,
Ürəyimiz dəlim-dəlim dəlindi,
Sərvətimiz elim-elim talandı,
Turan deyib ular, ular boz qurdum!

Macarıstan Uyğurustan arası,
Göynər türkün neçə-neçə yarası,
Bir soralım, nədir onun çarası?
Turan deyib ular, ular boz qurdum!

Uyğur dərdi, Kərkük dərdi bitmədi,
Araz dərdi, Mencük dərdi bitmədi,
Əsarətə son, türk dərdi bitmədi,
Turan deyib ular, ular boz qurdum!

Mavi bayraq dağ, dənizlər aşacaq,
Çox ellərdən çox ellərə qoşacaq,
Düşmən qorxub uzaqlara qaçacaq,
Turan deyib ular, ular boz qurdum!

Diləyimiz öz yerini bulacaq,
Çox dövlətlər bu birliyə gələcək,
Göy üzü bir Turan çadrı olacaq,
Turan deyib ular, ular boz qurdum!

Övlad, nəvə baldan şirin,
Möcüzəsi Göyün, Yerin,
Çox olsa da qayğı, sorun,
Doğulmağa dəyər dünya!

Bir kasıbı güldürməkçün,
Göz yaşını sildirməkçün,
Yıxılanı qaldırmaqçün
Doğulmağa dəyər dünya!

Yollarına zülmət çöksə,
Dövran səni dara çəksə,..
El yanında başın diksə,
Doğulmağa dəyər dünya!

Elə dayaq olmaq üçün,
Bir yol, cığır salmaq üçün,
"Vətən!"-deyib ölmək üçün,
Doğulmağa dəyər dünya!

Türküstan.- 2025.- 13-19 may, №16.- S.15.